

Ülvi ƏLƏKBƏRZADƏ

## ƏN BAHASINI

Nəfəsimdə qalanıb
Sənsizliyin ocağı.
Necə də rahat imiş
Məhəbbətin qucağı.

Gələn-gedən daşlayır
Ruhumdakı həsrəti.
Gərək sən dinləyəydin
Çeynənmiş nəsihəti.

Tanrı qoxusu gəlir
Şeirin sətirindən.
Sanki burnum düşübdür
Cəhənnəmin ətrindən.

Eşqimin tellərinə
Bir şeir yolum qalıb.
Şeirin dodaqları
Dodağımı əsir alıb.

Qələm azıb qalıbdır
Beş-on misra o yanda.
Yoluna davam elə,
Sevgimizdir bu yanda.

Küləyin yanağında
Ümidlər çiçək açıb.
Arzular körpələrtək
Qapını döyüb, qaçıb.

İlmə-ilmə sökürəm
Dərdlərin yaxasını,
Qulağıma pıçılda
Sən eşqin bahasını.

Doğrudanmı, çatılıb
Sənsizliyin qaşları?!
Ürəyimə düzülüb
İntizarın daşları.

## QANLI TORPAQ, QANLI İNSAN

Yaman boğuluram bu gün,
dərdin köynəyi
dar gəlir mənə..
Açıram yaxasın,
misra-misra,
söz-söz...
Üzümü göyün
üzünə tutub
dərindən nəfəs
alıram...
Günəş dodaqlarıyla
alov yollayır mənə,
Alov gözlərimdə
çiçəkləyir...
Göz yaşım suvarır
çiçəkləri
Gündüz və gecə...
Torpağın qoxusunu
içimə çəkirəm,
torpaqdan misra
ətri gəlir –
Qanlı misra
ətri...
Ya şeir intihar edib,
ya da şeiri qətlə yetiriblər
o torpaqda...
Qanlı torpağda bitən
çiçəyin ətri
bir başqa olur –
tamam başqa...
Göz yaşıyla suvarılan
torpaq... qandan başqa
nə qoxar ki?!
Nə bitirər ki?!
Bir yaş ümid,
bir közərən dərd...
Qanlı torpaq,
göz yaşıyla suvarılan
torpaq....

## ARZULARIMIZ

İndi kirpik-kirpik arzularımız
Səpilir gözlərdən bir yağış kimi.
Alına yazılmış qara bəxtimiz
Tökülür dodaqdan bir qarğış kimi.

Mil-mil düyməlstartnib həsrət köynəyi,
Boğulur sinədə qəmli sətirlər.
Düzülüb sırayla bəxtin rəngləri,
Sanki göy üzünə dərdlər çəkirlər.

Kədər də durubdur yolun sağında,
Daşlayır mən gedən o uzun yolu.
Gedirəm, arxaya baxmadan belə,
Sarılır boynuma dərdlərin qolu.

Gecələr uzanır Nil çayı kimi,
Gündüzlər ox olub qəlbimə batır.
Ayrılıq qoxulu bir cüt bənövşə
İllərdir solmayıb, sinəmdə yatır.

## YAZIM

Bir şeir də mən yazım,
Gözlə, gedişin üçün...
Gözlərindən süzülən
Qəmli baxışın üçün.

Ümidlərim dolaşıb
Sarmaşıqtək qoynuna.
Bir az da davam elə
Sən bu sevgi oynuna.

Kirpiklərim islanıb
Qəmli göz yaşlarımdan.
Sənsizlik asılıbdır
Kədərli qaşlarımdan.

Dodaqlar "cadar-cadar"
İntizar soyuğundan.
De,səni nə qaytarar
Ayrılığın yolundan?..

Sən gedən gündən bəri
Üşüyür dodaqlarım.
Nəfəsini eşitmir
Kar qalmış qulaqlarım.